21.07.2016

# MƏLUMAT

İsveçrə Milli Elm Fondu (IMEF) Azərbaycan və İsveçrə tədqiqat mərkəzləri və universitetləri arasında əməkdaşlıq münasibətlərinin qurulması, elmi araşdırmalar üçün maliyyə yardımları və qrantlardan istifadə imkanları yaradır.

İMEF tədqiqatçılar tərəfindən seçilmiş müxtəlif mövzuları dəstəkləmək üçün layihə qrantları ayırır. İşlədiyi təşkilat tərəfindən maaşla təmin edilən, lakin tədqiqat layihəsinin həyata keçirilməsi üçün əlavə maliyyə vəsaitinə ehtiyac duyan tədqiqatçılar bu proqramdan istifadə edə bilərlər. Tədqiqatçılar layihə üzrə tədqiqat xərcləri, cəlb edilmiş əməkdaşlar üçün maaş, həmçinin, elmi əməkdaşlıq və əlaqələrin maliyyə xarcləri üçün müraciət edə bilərlər.

Layihələr **1 oktyabr 2016-cı il tarixinə qədər** təqdim edilməlidir. Layihə təqdim etmək istəyənlər **2016-cı il avqust ayının ortalarına qədər** aşağıdakı linkdən istifadə edərək qeydiyyatdan keçməlidirlər:

(https://www.mysnf.ch/login.aspx?returnurl=%2fdefault.aspx)

Proqram üzrə ətraflı məlumatı qeyd edilən linkdən əldə etmək olar:

(http://www.snf.ch/en/funding/projects/Pages/default.aspx)

Bundan əlavə, İMEF-in İnkişaf və Əməkdaşlıq üçün İsveçrə Agentliyi ilə birgə təşəbbüsü olan Qlobal Məsələlər Proqramı (r4d) (http://www.r4d.ch) İsveçrədə və inkişaf etməkdə olan ölkələrin alimlərinin müştərək tədqiqatları üçün imkanlar açır.

İMEF-in "Sinergia" proqramı 2-4 tədqiqat qrupunun fənlərarası əməkdaşlığını təşviq edir və elm sahəsində yenilik gətirəcək layihələrə dəstəkləyir (http://www.snf.ch/en/funding/programmes/sinergia/Pages/default.aspx#Further%).

Proqramlar haqqında ətraflı məlumatlar aşağıdakı linkdən əldə edilə bilər: http://www.snf.ch/en/funding/selection-guide-for-funding-schemes/Pages/default.aspx

Əlavə məlumat üçün AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinin müvafiq əlaqələndirici şəxsinə müraciət edilə bilər.

Hörmətlə,

AMEA Rəyasət Heyəti aparatının
Beynəlxalq əlaqələr idarəsinin rəisi,
biologiya üzrə fəlsəfə doktoru, dosent

Esmira Əlirzayeva